# Qazaxıstanın Qütb ulduzu - Abay



(başlanğıcı ötən sayımızda)

***Ömrün boyu nəfəs-nəfəsə yaşadığın dostun səni dəyərləndirməz, lakin ləyaqətsiz, ən pis düşmənin ona ömründə bir yaxşılıq etsə, gedib həmin düşmən üçün canından keçir. Niyə?***

***Niyə dostların çoxu öz dostuna xeyir diləməz, lakin iki dostundan hansının işləri uğurlu gedərsə, bir-biri ilə düşmən olurlar?***

***Niyə bəziləri onlara doğru məsləhət verən ağsaqqalı kənarda axtarır, lakin onun işinin cikinə-bikinə bələd olan ağsaqqalı yanında görmür?***

***Birinin evinə qonaq getdiyində, heyvanlarının ağzını yığıb tövləyə bağlayar, lakin öz həyətinə qonaq gələndə isə nə qədər mal-heyvan varsa, açıb buraxır. Bunun səbəbi nədir?***

***Dinclik, sülh axtaran xalq, dinclik görəndən sonra, sakit durmaz – onların dinclikdən bezməsinin səbəbi nədir?***

***Niyə xalqın başına hər zaman hiyləgər və acgöz adam gəlir? Acgözlərin, fırıldaqçıların hər zaman kasıb olması nədəndir?***

***Niyə günübacı arvad hər zaman sevimli olur? Niyə kasıbların çoxu təkəbbürlü olur?***

***Niyə səbirli adamları zəif iradəli, hiyləgər, dalaşqan, aravuran adamları isə cəsarətli igid adlandırırlar?***

***Niyə qazaxlar doğru sözü dinləməz, bunun üçün vaxtları olmaz, lakin boş qeybətlərə, uydurma və söz-söhbətlərə, böhtan və şər işlərə hər zaman vaxt taparlar?***

**1897**

## Qırx birinci söz

"Qazaxa ağıl verəcəm" deyə fikirləşən adam iki şeyi dəqiq bilməlidir. Birincisi, qazaxa ağıl verməyi düşünən adam yüksək hakimiyyətə sahib olmalıdır, böyüklərini qorxutmaq üçün gənc uşaqlarn qolundan tutub mədrəsələrə göndərməli, birini o yolda, birini bu yolda yarım- çıq qoymalıdır. Valideynlərini isə qorxudaraq, verdiyi təhsilin pulunu onlardan almalıdır. Belə olan şəraitdə qızlara müsəlman dərslərini, dindarlığın şərtlərini öyrətməlidir. Belə düşünmək olar ki, bu savad, elm verdiyi uşaqlar atababalarının yaşına çatanda, balaca uşaqlara nəsə təzə elm öyrədəcək, doğru yol göstərəcəklər. İkincisi isə bu doğru yolu göstərən adamın özünün də çox zəngin olması lazımdır. Hər bir təhsil vermək istəyən ustadın məsrəflərini xalqa ödətdirmək lazımdır. Uşaqların ata-babasını pulu ilə razı salıb, bu uşaqları alıb, yuxarıda bəhs etdiyimiz yollarla aparsa, bəlkə bu millət düzələr.

Lakin bu xalqı qorxudub, təsir altında saxlamaq gücü kimsədə olmadığından, uşaqların da ata-babalarından pul ilə nəsə tələb etməyə kimsənin gücü yetməz. Qazaxları nə qorxudaraq, nə başını aldadaraq, heç nəyə inandırmaq mümkün deyil. Ətindən sümüyünə qədər atasından miras qalan, ana südüylə sümüyünə keçən cahillik qazax xalqını insanlıqdan uzaq salıb. Hər kəsi araya qoyub yerli-yersiz üstlərinə lağ etmələri, qeybətləşmələri, şaqqanaq çəkib gülməkdən başqa nələri var ki? Onlar fikriləşmək istəsələr də, fikirlərini bir məcraya yığıb yönəldə bilmir. Onlarla söhbət edəndə belə, onlar səni diqqətlə dinləyəcək qabiliyyətə malik deyillər; – gah gözləri qaçacaq, gah da fikirləri. İndi nə edək? Necə yaşayaq?

**1897**

## Qırx ikinci söz

İnsanın pis yola düşməyinin əsas səbəbi iş- sizlikdən başlayar. Əgər torpaqla əlləşsə və ya ticarətlə məşğul olasa, pis iş görməyə, yamanlıq etməyə vaxtı qalarmı? O auldan bu aula, birindən at soruşub, birindən bir qarın yemək alıb, tüfeyli və müftəxor həyat keçirib, bir yerdən başqa yerə söz aparıb, söz gətirib, qeybət edən, hiyləgərlik və tülkülüklə insanları bir-birinə saldıran, kimsəyə xeyri dəyməyən adama nə deyəsən?

Öz zəhməti sayəsində, halal zəhmətlə var-dövlət qazanan əsl kişi, belə adamların hərəkətini özünə sığışdırmaz. Zəhmətkeş, əməksevər adam öz işini buraxıb qapı-qapı gəzməz. Öz təsərrüfatında malheyvanı çobanlara, uşaq-muşağa tapşırıb, Tanrının ona verdiyi ruzini az sayaraq, başqa yerdə yeni əyləncələr axtaran, orabura gəzən kişi də, bir ev sahibi ola bilməz. Onun qazandığı var-dövləti, elə etibar etdikləri tərəfindən dağıdılar, oğurlanar, qarğa-quzğuna nəsib olar, ya da, boranda-qarda məhv olar. O, bu itkiyə də dözəcək, lakin pis işlər görən, kiminsə evini yıxmaq üçün bir araya toplanan, gizli qərarlar verən adamların yanında olmaqdan zövq alacaq... Belə düşünəcək ki, onların yanında olmaq toplumda görünməkdir. Əlinə bir az mal-dövlət yığan kimi, elə bilir, daha əli hər yerə çata bilər, evini-eşiyini, təsərrüfatını yad adamların öhdəsinə buraxıb: "Sən bunlara bax, üstündə göz ol!" – əmrini verib, özü şadyanalıq etməyə, avaralanmağa, müftəxorluq edənlərlə gün keçirməyə gedəcək.

***İndiki adamların dərin ağlı yoxdur, qazandıqları mal-dövlət, varidat ilə də öyünməli bir işləri yoxdur. Şikayət yazmaq istəyənə bir mirzəlik etmək, kimisə aldadıb, barmağına dolamaq üçün dərin ağıl lazım deyil, lakin onalr üçün bütün bunları əxz etmək və sərgiləmək şöhrət sayılır...***

***Lakin bu əməllərdən başı çıxan adamı məclisdə yuxarı başda otuzdurub, ən yağlı əti onun qabağına qoyur, ən yaxşı atı ona verirlər. Bəzən belə fırıldaqçılar, varlı*** adamları hədəf götürüb:

"Siz təki məndən nəsə istəyin, uğrunuzda özümü oda ataram", – deyərək bir bəyi inandırıb, onun etibarını qazana bilir. Və bu hiyləgərcəsinə deyilmiş söz bəs edir ki, həmin müftəxor bar- mağını barmağına vurmadan, ən yaxşı atı minib, ən böyük hörmətə sahib olur. Bu fırıldqları edən o intelligent mirzə, özünün öz çıxarının da hesabını bilmir. ***"Bunu necə edim?", - deyib, birinə ağıl öyrətmək istəsə, o, öncə özündən ağıllı birini tapıb, gizlində onun fikirlərini öyrənəcək, sonra isə ondan məsləhət istəyənin yanın- da özünü ağıllı göstərirmiş kimi, verdiyi sualın cavabında: "Aman, Allah, siz bunu bulmirdiniz məgər? Yəni siz belə sadə bir məsələnin çıxış yolunu tapa bilmirdiniz? Oraya bunu qoy, buraya onu qoy, bu işi belə görsən olmazmı?", - deyib, min bir hiylə və əda ilə qarşısındakı adamın etibarını qazanar, onlarda inam yaratmaq üçün bir-birindən dəhşətli yalanlar danışar, insanları bir-birinə salışdırmaqdan belə çəkinməz. Ağıllı adamlar bu əldəqayırma intelligentin sözlərinə uymaz, ondan üz çevirib gedər. Bu mənzərədən də istifadə edən, deklamasiya danışan həmin adam: 'Gördünüzmü? Mən sizə demişdim, ona etibar etməyin", – deyib, insanları özünə ram edib, inandırmağı bacarır.***

İndi bir baxın, görün, indiki insanlar öz vaxtlarını və güclərini necə ucuz işlərə xərcləyir. Görün bir necə yaşayırlar?"

**1898**

## Qırx üçüncü söz

İnsan iki şeydən yaranıb: biri bədən, biri can. O iki məcazın xüsusiyyətləri insana biri doğulduğunda verilir, digəri isə zəhmət ilə əldə edilir. Canı bəsləmək üçün yeməlisən, içməlisən, yatmalısan. Bunlar hamısı insanın özündən asılı olmayan tələblərdir. "Azmı, çoxmu, bilsəm əgər", "kaş görsəm" arzuları... Bunların da hamısı doğulduğumuzdan bizə verilən özəllikdir.

Ağıl və elm isə əməklə qazanılır. Gözlə görüb, qulaqla eşidib, əlinlə tutub, dilinlə dadıb, burnunla qoxlayıb dünyadakı hər şeyi hiss edirsən. O gördüklərimizin hər birini könlümüzə uyğun, özümüz bildiyimiz kimi qəbul edirik. Bu, könlümüzə yaxın buraxdıqlarımız isə beş duyğu orqanımızdan keçdikdən sonra, bizim olur, bədənimiz – tənimiz, canımız tərəfindən qəbul edilir. O canın doğuluşdan qüvvətidir. Yaxşı qəbul etdiyimiz şeylərdən canımıza rahatlıq gəlir, pis qəbul etdiklərimiz isə canımızı, fikrimizi rahatsız edir. Bu, qəbul etdiyimiz nəsnələr öncə kiçik olurlar. Onu qəbul edən insan isə öz gücünü göstərərək, həmin xüsusiyyətləri böyüdüb gücünü-qüvvətini, təsirini artırır. Əgər özünə layiq bilməsə, o zaman, boş bir hissiyyat kimi üstündən əl götürür.

O adam ki, çox eşidib, çox görür, elmləri də- rindən öyrənir, o çox şey qazanır: aydın mühakimə edir və yaxşını pisdən ayırmağı bacarır. Hadisələri və faktları təhlil etmək bacarığı olan insana ağıllı adam kimi yanaşırlar; lakin mühakimə etmək bacarığı olmayan, hadisələrdən düzgün nəticə çıxarıb, düzgün yol tapmayan adam isə bu uğursuzluğunun səbəbini Tanrıda görür və deyir: "Əgər Tanrı ağıl verməyibsə, neyləmək olar?", yaxud "Tanrı səninlə məni bir yaratmayıb ki?".. Məgər Yaradan onu yanındakı o ağıllı adamdan fərqləndirmişdi ki? Əgər o da eşidib, dinləyib, əməl etsəydi, belə olardımı?

Bu nadan adamın işidir. Ulu Tanrı ona: "Görmə, eşitmə, eşitdiyin nəsnəni öyrənmə, heç nəylə maraqlanma" deyibmi? İnsana məxsus hisslərini itirərək, "Oyna-gül, ye-iç, gəz-dolan, sonra da, heyvan kimi yaşa" deməyib axı...

Bəziləri də: "Ağıl beldən gəlməsə də, tələb beldən gəlir", "Tələb edən adam ağıl tapar, tələb etməyən isə heç nə" deyir. Bu da bekara sözdür. Tələb uşaqda da var; axı, biz deyirik, ilkin mərhələdə kiçik olanda insanın tələbləri də, dünyagörüşü də, qavrayışı da kiçik olur, bunlar sonradan təkmilləşir. Hətta insan sevdiyi peşə və ya sənətin dərinliyinə canını işə verməklə yiyələnir. Hətta öyrəndiyin vərdişləri, sənəti hər gün təkrarlamasan, özün də bilmədən həmin işi unudacaq və dönüb başqa adam olacaqsan. Məgər ustalıq və istedad səni tərk eləyəndə, bu haqda səndən soruşurmu? Həmin vərdişləri, sənəti yenidən tətbiq etmək üçün bəzən öncəkindən də çox əmək sərf etməli olursan.

***Can qüvvəti deyilən qüvvə çox şeydə olur, onları yazmağa vaxt yetməz. Zaman-zaman öyrəndiyin peşəni, sənəti ürəyin təpəri ilə pöhrələndirmək və rövnəqləndirmək olur, ona diqqət yetirməsən, qayğı göstərməsən, bir gün küsüb gedir və bir fürsət kimi əlindən uçur" – Sən isə onu daha tuta bilmirsən...***

***Bu qüvvət işinin üç qüvvət var ki, onu göz bəbəyi kimi özün üçün qorumalısan, bunları qo- rumasan, heyvandan fərqin olmayacaq.***

***O adam ki, çox eşidib, çox görür, elmləri də- rindən öyrənir, o çox şey qazanır: aydın mühakimə edir və yaxşını pisdən ayırmağı bacarır. Hadisələri və faktları təhlil etmək bacarığı olan insana ağıllı adam kimi yanaşırlar; lakin mühakimə etmək bacarığı olmayan, hadisələrdən düzgün nəticə çıxarıb, düzgün yol tapmayan adam isə bu uğursuzluğunun səbəbini Tanrıda görür və deyir: "Əgər Tanrı ağıl verməyibsə, neyləmək olar?", yaxud "Tanrı səninlə məni bir yaratmayıb ki?".. Məgər Yaradan onu yanındakı o ağıllı adamdan fərqləndirmişdi ki? Əgər o da eşidib, dinləyib, əməl etsəydi, belə olardımı?***

**(davamı gələn sayımızda)**

**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
**Aida EYVAZLI GÖYTÜRK**